

Elnur Abdıyev

## ARZU

Səhərlər Günəşi öpən gözlərin,
Tellərin darayan əllərin ola.
Dünyanı qucmağa sevgin bəs edə,
Günəşin telləri tellərin ola.

Öpəsən üzünü Yer kürəsinin,
Çatlaya canında ölümün bağrı.
Elə vurulasan vurulanda da,
Sənə ləzzət verə canda hər ağrı.

Durub qıy vurasan işığa sarı,
Biləlær sən varsan, qaranlıqdasan.
Alnının yazısın dəyişə Tanrın,
Özündə batdığın yerdən çıxasan.

## ŞEİR GECƏM

Yenə gözlərimdən şeir dağılır,
Misralar uzanıb yataq yerimə.
Duru gözlərindən bir bulaq axır,
Yarımçıq yazdığım eşq şeirimə.

Yenə də hecalar sığmır sözlərə,
Saitlər uzanır, samitlər itir.
Yenə də bir şeir sancısı tutub,
Hardasa dünyaya bir körpə gəlir.

İlahi, necə də sevdim həyatı,
Körpə şeirlərin qığıltısında.
Bəstəboy misralar boy atdıqca da,
Uzandım səsimin pıçıltısında.

Pıçıldayıb yazdım sənə nəyim var,
Pıçıltı səslərin ən möhkəmidi.
Yenə pıçıldayır mənə yazdıran,
Bu səs Yaradanın söz görkəmidi.

## QAPI

Nə vaxt açılarsan axı,
İllərdir bağlanan qapı?!
Açarı dil-dil pas atan,
Qıfılı yağlanan qapı.

Yoxmu səni səndə anan,
Qanmazlıq edir hər qanan?
Üzü işım-işım yanan,
Ey içi dağlanan qapı.

Yaxşı əkdi həsrət əkən,
Səni çəkəmməz sən çəkən.
Pəncərələri nəm çəkən,
Qapısı bağlanan qapı.

## EVLƏR KÖRPƏSİZ OLMASIN

Heç evi körpəsiz eləmə, Tanrım!
Körpə varsa evin vardan bəsidi.
Dünyanın ən ritmik musiqisi də,
Körpə qığıltısı, körpə səsidi.

Hər evdə bir körpə bir körpü demək,
Bu gündən - sabaha yoldur o beşik.
Körpəsiz evlərin divarı bumbuz,
Körpəsiz evlərin damları deşik.

Heç evi körpəsiz eləmə, Tanrım!
Ağaca budaq ver budağa yarpaq.
Bizim sabahımız körpələrimiz,
Onlarla güləcək bu Ana torpaq.

## ÖZÜM BOYDA

Mən dünyaya gəlmədən,
Alnımı yazan kişi.
Gələcəyə körpüyəm,
Quruyub çay keçmişim.

Daha özüm yazıram,
Hər gün bircə hərfini.
Əlifbada naşıyam,
Tez tutursan səhvimi.

Mən qan idim çiləndim,
Ələndim cana döndüm.
İnsanlıq süfrəsində,
Eşqlə ehsana döndüm.

Ey bəxti yazan kişi,
Bəxtdə nə var oyadım.
Bir cümlə də artırım,
Özüm boyda boy atım.

## ZAMANIN İÇ ÜZÜYƏM

Kim nə deyir desin,
Zamanın iç üzüyəm.
Hər gün bir qəlbdə yeriyirəm
tık, tık.
Bəzən birində yubanıram,
Bəzən birində qaçıram
onda ahəng pozulur
tırık, tırık.
Eh, bu üzlər var ha,
hamısı eyni rəngdə olmadığı kimi,
içlər də eyni yöndə deyil.
İndi bil
nə çəkir Tanrı, adam.
Sevməyən bir qəlbdə
Birinin axsamağından,
sevən qəlbdə ağlamaq
Daha gözəldir deyilmi?

## HƏR ŞƏKİL ADAM OMASA DA

Hər şəkil adam olmasa da,
Hər adam sonda şəkildi.
Cansız kağız parçası,
Daş parçası
şəkillərlə dilə gəldi.
Xatirələr şəkillərdə gülər,
Şəkillər xatirələrdə ölər.
Hər şəkil insan ömrünü iki bölər:
Əvvələ və geriyə.
Düşünərsən hansı biriyəm?
Hər üz şəkildəki kimi gülməz,
Hər şəkili sahibi yaşaya bilməz.
Hər şəkil görüş yeridir gözlərin,
Hər şəkil ayrılığıdır üzlərin.
Hər şəkil dərin-dərin
Düşünsən ürəklərin,
üzüdür, əslində.
Gəl şəkil çəkdirək, uzağım
Görüm necə görünürəm ürəyində?
Hər şəkil adam olmasa da,
Hər adam sonda şəkildi.
Kimisi kağıza çəkildi,
kimisi daşa həkk edildi.
Biz ürəklərə çəkilmişik,
Bətnlərə əkilmişik.
Bu şəklin sabahında o qədər körpə,
körpü olacaq ki sabahın sabahına.
Ad axtarma bu şəklin adına.
Bizim şəklimizin adını,
xəyalımın qadını
Zaman qoyub:
Sevgi.
Bu şəkil bir ev ki,
Damı da, döşəməsi də,
Eşqlə rəngləndi.

## ÖZÜMƏ ÇATAM

Mən özümü dərk edəndən,
Özümə özgəyəm, yadam.
Özümdən dönsəm özümə
Nə gözəl güzgüyəm, adam?!

Uzaqdan elə yaxınam,
Yaxından belə görməzdim.
Mən məndən qaçan axınam,
O mənə çatsam, ölməzdim.

Enirəm özümdən hər gün,
Qalxıram özümə çatam.
Boyum boy vermir boyuma,
Başıma baş qoyub yatam.

## QƏM YEMƏ

Əssə tənhalıq küləyi,
qəm yemə.
Bacara bilsən əgər,
ört özünü üstünə.
Sonra da altdan boylan,
öz büstünə.
Əyiləcək kölgələr,
tavanından yerədək.
Yüz dəfə yol gələcək
rəqəmlər,
Düz yüzdən - yüz birədək.
Anlayacaqsan onda
Təklik elə tənlik ki,
Məchulu bərabərdir
elə bərabərsizliyə.
Əssə tənhalıq küləyi,
Qəm eləmə,
bütün rəqəmlər köhnəlib,
Dərdli ömür köhləni,
Yol uzunu yüklənib.
Yükünu qoya bilsən,
Çəkisin itirəcək,
Yer kürəsi sən boyda.

## SEVDİM

Şimal qütbü kimi soyuq biriydim,
Doğdun Günəş kimi isitdin məni.
Əridim su oldum, qar dənəsiydim,
Dağ boyu dərələr eşitdi məni.

Səni necə sevdim, necə bilmədim?
Həqiqət cavabsız bu sualdadır.
O qardan əriyib su olanadək,
Olanım, qalanım hələ yoldadır.

Gör hardan haracan gətirdin məni?
Qar idim doğradın damarlarımı.
Su kimi axıram, baxırsan sudur,
Su qarın qanıdır, eh qarın qanı...

Necə qıydın axı bu qanı axa?
Böyük sevgilərin qandır sübutu.
Bilirəm, bilirəm, bilirəm daha,
Heç çiyin daşımaz bu eşq tabutun.

## YAŞAT

Bir az mahnı qat gözünə,
bu boyat sukutun.
Qulaqlarım batır səsdən,
oxu pəsdən
yalnızlığın nəğməsini.
Asta-asta vur həyat şərqisinin ritmini.
Elə vur ki,
ürək döyüntülərimin ritmiylə həmahəng olsun.
Elə vur ki,
rəng özgə rəng olsun.
Bu yekrənglik,
yeknəsəqliyidir xoşlanmadığım halın.
Çevir üzünü dünya adlı bu valın.
O üzündə,
Cəhənnəm adlı vüsalın,
elçiləri döyür qapını.
Açımmı?
Bilmirəm,
Bir az mahnı qat gözünə
bu boyat sükutun.
Rəqs etmək istəyirəm,
Mənə toxun,
ən böyük rəqsdir,
sümüklərin titrəməsi.
Toxunmayanlar nə bilsin,
toxumalarından yıxıldıqlarını.

## GEDƏK

Adım nurdu, özüm nuram,
Qaranlıqların qənimi.
Məhəbbət üçün uğuram,
Sevgi buraxmaz əlimi.

Sən də əlini ver gedək,
Gedək ən son adamacan.
Su, su yuyub sahilləri,
Gedək ən son adayacan.

O adada bir sükut var,
Doğrayaq qanını içək.
Bir bədəndə bir yol tutub,
Üç uçuq körpüdən keçək.